| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **Ədliyyə Nazirliyi** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **30.06.2015** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **8-N** |
| **ADI** | **“Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası”na dəyişikliklər edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **11.07.2015** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **380.050.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **15201506300008** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **10.07.2015** |

AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 30.06.2015 |
| Qeydiyyat nömrəsi | 8-N |
| Adı | "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"na dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 11.07.2015 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 380.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201506300008 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 10.07.2015 |

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa və "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndinə əsasən kollegiya

**Q Ə R A R A  A L I R:**

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə 2005-ci il 23 noyabr tarixli 22-T nömrəli əmrlə təsdiq edilmiş (2005-ci il 23 noyabr tarixli 3203 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış) "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"nda dəyişikliklər edilsin (əlavə olunur).

2. Bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).

3. "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"nın yeni muddəalarının öyrənilməsi, mütəşəkkil və dürüst icrası üzrə lazımi tədbirlərin görülməsi təmin edilsin (T.Musayev, İ.Məmmədov).

4. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin .

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Fikrət Məmmədov**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
Kollegiyasının 30 iyun 2015-ci il tarixli 8-N nömrəli
Qərarı ilə təsdiq edilmişdir.

**"Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"na aşağıdakı dəyişikliklər edilsin:**

**1.** 3.3-cü bənddə "Notariusların" sözündən sonra ", notarius vakansiyalarının" sözləri əlavə edilsin;

**2.** 3.4-cü bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"3.4. Şəhadətnamənin alınması üçün şəxs Nazirliyə bu Qayda ilə müəyyən edilmiş formaya uyğun (2 nömrəli əlavə) ərizə təqdim etməlidir. Ərizədə müsahibə və ya peşə hazırlığına dair müsahibə nəticəsində işləmək istədiyi notarius vakansiyası üzrə başqa namizədlərlə müqayisədə daha az keçid balı topladığına görə ona təklif edilən digər vakant notarius vəzifəsi üzrə fəaliyyət göstərə biləcəyinə dair münasibəti qeyd olunur.";

**3.** 4.1-ci bəndin birinci abzasının birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"4.1. İmtahan namizədin seçdiyi notarius vakansiyası üzrə əsasən kompüterdən istifadə edilməklə test üsulu ilə keçirilir.";

**4.** 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“5.6. Müsahibədən 15 (on beş) və daha çox bal toplamış namizədlərin sayı elan edilmiş notarius vakansiyalarının sayından çox olduqda, ərizəsində göstərilən notarius vakansiyası üzrə ən yüksək bal toplamış namizəd icbari təlimə buraxılır. Digər namizədlər sırasından isə ardıcıllıqla daha çox keçid balı toplayanlara ərizələrində qeyd etdikləri təqdirdə boş qalan başqa notarius vakansiyası üzrə icbari təlimə göndərilməsi təklif olunur.

Təklifi qəbul etməyənlər, habelə qalan digər namizədlər müsahibədən keçməmiş sayılırlar.”;

**5.** 6.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“6.7. Müsahibədən 15 (on beş) və daha çox bal toplamış namizədlərin sayı elan edilmiş notarius vakansiyalarının sayından çox olduqda, ərizəsində göstərilən notarius vakansiyası üzrə ən yüksək bal toplamış namizəd müsahibədən keçmiş hesab olunur. Digər namizədlər sırasından isə ardıcıllıqla daha çox keçid balı toplayanlara ərizələrində qeyd etdikləri təqdirdə boş qalan başqa notarius vəzifəsi təklif olunur.

Təklifi qəbul etməyənlər, habelə qalan digər namizədlər müsahibədən keçməmiş sayılırlar.”;

**6.** 6.8-ci bənd ləğv edilsin;

**7.** 7.1-ci bəndin ikinci abzasının birinci cümləsində “6.8-ci” sözü “6.7-ci” sözü ilə əvəz edilsin və “qaydada” sözündən sonra “ixtisas komissiyası tərəfindən” sözləri əlavə edilsin;

**8.** Qaydaya 2 nömrəli əlavə aşağıdakı redaksiyada verilsin:

“Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası”na
2 nömrəli əlavə

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyinə

______________________________________

______________________________ *yaşayan*

______________________________________

____________________________ tərəfindən

Ərizə

Mən _____________________________________ kimi notariat fəaliyyəti ilə peşəkarcasına
(dövlət notariusu və ya xüsusi notarius)

məşğul olmaq istəyirəm.*

Bununla əlaqədar qanunvericiliklə müəyyən edilmiş prosedurlar çərçivəsində müvafiq şəhadətnamə almaq məqsədi ilə sənədlərimi qəbul etməyinizi xahiş edirəm.

Bildirirəm ki, ikili vətəndaşlığım, digər dövlətlər qarşısında öhdəliklərim, barəmdə bəraətverici əsaslar olmadan cinayətin törədilməsi üzrə cinayət işinin xitam olunması haqqında istintaq orqanı və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı yoxdur, din xadimi deyiləm, vəzifəmin icrası ilə bağlı əvvəllər qanunvericiliyin tələblərini pozduğuma görə işdən azad edilməmişəm, əvvəllər qəsdən cinayət törətməyə görə məhkum olmamışam, barəmdə notariat fəaliyyəti ilə məşğul olmağımın məhdudlaşdırılması və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında məhkəmə qərarı çıxarılmayıb, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmamışam.

**İmza:** ___________________________          ________________________________
(soyadı və inisialları)

**“_____”__________________20____**

İmtahan notarius vakansiyaları üzrə kompüter vasitəsilə keçirildikdə namizəd bu cümlənin əvəzinə aşağıdakı cümlələri yazmalıdır:

Mən __________________________ notariat kontorunda ____________________________
(notariat kontorunun adı) (dövlət notariusu və ya xüsusi notarius)

kimi notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq istəyirəm.

Müsahibə və ya peşə hazırlığına dair müsahibə nəticəsində başqa namizədlərlə müqayisədə daha az keçid balı topladığıma görə həmin notarius vakansiyasına təyinatım mümkün olmadıqda, təklif olunacağı təqdirdə digər notarius vakansiyası üzrə fəaliyyət ________________________________.
(göstərə bilərəm və ya göstərməyə razı deyiləm)